AZƏRBAYCAN RESPUBLİKASI
TƏHSİL NAZİRLİYİ

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ (UNEC)**

**FAKÜLTƏ: İQTİSADİYYAT VƏ İDARƏETMƏ**

**Təsdiq edirəm:**
**"İctimai idarəetmə və sosial innovasiyalar"**
**kafedrasının müdiri, i.ü.f.d., dos. E.Q.Məmmədov**

## AİLƏ VƏ SOSİAL İŞ FƏNNİ ÜZRƏ

# İŞÇİ TƏDRİS PROQRAMI

**(S İ L L A B U S)**

## FƏNN HAQQINDA MƏLUMAT

| | |
|---|---|
| **Fənnin kodu:** | **00126** |
| **Fənnin növü:** | **əsas** |
| **Tədris ili:** | |
| **Fənnin tədris semestri:** | **yaz** |
| **Fənnin tədris forması:** | **əyani** |
| **Tədris dili:** | **Azərbaycan** |
| **Fakültə:** | **İqtisaiyyat və idarəetmə** |
| **Qrup:** | |
| **Kafedra:** | **"İctimai idarəetmə və sosial innovasiyalar"** |

**Tədris yükü:** **90 saat**

**Kredit sayı:** **4**

## MÜƏLLİM HAQQINDA MƏLUMAT


**Fənni tədris edən müəllim:** **b/müəl.i.f.d Səfərova Fidan**

**E-mail ünvan:** **Fidan_Safarova@unec.edu.az**

**İş telefonu:** **012 564 37 05**


**Tələbələr üçün qəbul vaxtları:** **çərşənbə, saat 13:00-16:00**

**Fənnin təsviri**

Bu kurs cəmiyyətdə ptoblemi olan ayrı-ayrı ,ailələrin və q mənafeyini və sosial rifahını qorumağa kömək edir. .Bu işi yerinə yetirmək üçün sosial işçilərin daha fəal şəkildə hazırlanması lazımdır. Ailələr fərdlər haqqında tədqiqat apararkən daha diqqətli olmaq və problemlərin haradan qaynaqlandığını araşdırmaq lazımdır.

Kursun tədrisi prosesində zamanı sosial mühit amilləri və onların dinamikası öyrənilir. Xidmətlərin,sosial sığortanın,demoqrafik proseslərin sosial işə olan təsiri araşdırılır.Bununla yanaşı olaraq regionlardarda sosial işə və sahibkarlıq mühitinə də xüsusi diqqət ayrılır.İqtisadiyyatın sosial işə olan təsirləri qiymətləndirilir.

**"Ailə və sosial iş" fənninin tədrisinin məqsədi və vəzifələri**

Tədris kursunun məqsədi ailədəki çətin həyat vəziyyətinin dəyişdirilməsi, müxtəlif növ ailələrin adaptasiyası və sosial reabilitasiyası üçün lazımi şəraitin yaradılması, müxtəlif növ ailələrdə münaqişəli vəziyyətlərin baş verməsinin qarşısının alınması istiqamətində işlərin əlaqələndirilməsindən ibarətdir.

Mövzunun öyrənilməsi qarşısında duran vəzifələr aşağıdakılardır:

- tələbələrdə ailə ilə sosial xidmətin bir peşə kimi tam anlayışını formalaşdırmaq;
- tələbələri ailə ilə sosial işin texnologiyasına əsas elmi yanaşmalarla tanış etmək;
- tələbələri sosial müdafiə müəssisələrində, müxtəlif növ ailələr, qadınlar və uşaqlarla sosial iş üzrə təşkilatlarda sosial işə hazırlamaq.
- tələbələrə ailələrlə beynəlxalq sosial işin mahiyyətini, ailə siyasətinin əhatə dairəsini çatdırmaq.
- tələbələrə müxtəlif növ münaqişəli ailələrdə sosial işin inkişafını təhlil etmək və müqayisə etmək imkanı vermək.

- ailələrə lazımi köməklik göstərmək üçün dövlət və ictimai təşkilatlarla ünsiyyətdə vasitəçi olmaq.

## FƏNNİN TƏDRİS METODOLOGİYASI

Fənnin tədrisi ilə tələbələr sosial iş və ailə haqqında ətraflı məlumat alır və ailələrə sosial xidmətin necə göstərilməli olduğunu öyrənir, sosial rifah proqramlarına aid münasibət formalaşdırır. Kursun tədrisi başa çatandan və bütün mövzular mənimsənildikdən sonra tələbələr ailələrə necə düzgün sosial yardım olunmalıdır onu öyrenir.

## ÖYRƏNMƏNİN NƏTİCƏLƏRİ

- müəyyən kateqoriyalı ailələrə, qadınlara və uşaqlara dəstək, məsləhət, reabilitasiya yolu ilə sosial yardımın göstərilməsi;
- müxtəlif ailələrdə sosial müdafiənin inkişafına təsir edən amillərin qiymətləndirilməsi;
- qlobal miqyasda ailələrlə sosial işin təşkilinin təhlili;
- ailələrlə sosial işin gələcək inkişafının proqnozlaşdırılması üsulları;
- ailə üzvülərinin potensialının aktivləşdirilməsi və göstərilən sosial xidmətlərə nəzarət.

**Bilməlidirlər:**

Kursu bitirən tələbə fərdlər,ailələrlə sosial iş və ona təsir edən sosial və iqtisadi mühit haqqında geniş məlumat əldə edəcəklər.Tələbələr bu təsir formalarını düzgün dəyərləndirmək və düzgün nəticələr çıxartmağı bacaracaqlar.

## PREREKVİZİTLƏR:

Fənnin tədrisi üçün öncədən tədrisi zəruri olan fənn yoxdur.

**“Ailə və sosial iş” fənninin mövzuları üzrə keçirilən saatların miqdarı**

| № | Mövzunun adı | Mühazirə | Məşğələ |
|---|---|---|---|
| 1 | Ailə sosial işin obyekti kimi | 2 | 2 |
| 2 | Ailə və sosial işin nəzəri əsasları | 2 | 2 |
| 3 | Ailənin funksiyaları və vəzifələri | 2 | 2 |
| 4 | Ailə sosial işi: ilkin qiymətləndirmə | 2 | 2 |

| | | | |
|---|---|---|---|
| 5 | Ailədaxili şiddət | 2 | 2 |
| 6 | Ailənin həyat dövrü modeli | 2 | 2 |
| 7 | "Risk qrupu" ailələri və onların xüsusiyyətləri | 2 | 2 |
| 8 | Ailə məsləhəti və ailə terapiyası | 2 | 2 |
| 9 | Ailədaxili sosial ünsiyyət | 2 | 2 |
| 10 | Ailələrlə sosial iş və ailə yoxsulluğu | 2 | 2 |
| 11 | Xroniki xəstəliklərin və əlilliyin ailə həyatına təsiri | 2 | 2 |
| 12 | Ailəyə yönəlik sosial iş: müdaxilə və sonlandırma | 2 | 2 |
| 13 | Ailədə uşaq baxımsızlığı və məişət zorakılığı | 2 | 2 |
| 14 | Ailə problemlərinə yanaşma | 2 | 2 |
| 15 | Azərbaycanda ailə siyasəti | 2 | 2 |
| | Cəmi | **30** | **30** |

## X. Fənnin mühazirə mətnləri

Fənn üzrə bütün mühazirə mətnləri və təqdimatlar, habelə zəruri məşğələ materialları elektron formatda Universitetin saytında "Virtual universitet" bölməsində (www.vu.aseu.az ) yerləşdirilir.

Fənn üzrə bütün mühazirə mətnləri, təqdimatlar, müzakirə sualları və tapşırıqlar elektron formatda Universitetin saytında "Virtual universitet" bölməsində (www.unec.edu.az), müəllimin şəxsi kabinetində yerləşdirilmişdir.

**Fənnin tədrisində istifadə ediləcək ədəbiyyat siyahısı**

| Fənlərin tədrisi üçün əsas ədəbiyyat | Fənlərin tədrisi üçün əlavə ədəbiyyat | Tədrisdə istifadə olunan internet resursları |
|---|---|---|

| | | |
|---|---|---|
| 1. T. Artan. Birey ve ailelerle sosyal hizmet. İstanbul üniversitesi, 2021<br><br>2. T. Artan, T. “Bireylerle Sosyal Hizmet” ve “İletişim Becerileri” Ders Notları. İstanbul Üniversitesi, Cerrahpaşa Sosyal Hizmet Bölümü, 2020 | 1. Aktaş, A. M. (2013). Aile Danışmanlığı ve Hizmet Yaklaşımı. H. Acar, N. Negiz, ve E. Akman içinde, Sosyal Politika ve Kamu Yönetimi Bileşenleriyle Sosyal Hizmet Temelleri ve Uygulama Alanları (s. 181-194). Ankara: Maya Akademi.<br><br>2. Aksoy, A. B., ve Koran, N. (2016). Türkiye'de Bebeklik Dönemi ile İlgili Yapılan Araştırmaların Analizi (2004-2014). Turkish Journal of Social Research/Turkiye Sosyal Araştırmalar Dergisi, 20(2), 363-376<br><br>3. Беличева С.А. Социально-педагогическая поддержка детей и семей группы риска: межведомственный подход. - М.: Редакционно-издательский центр Консорциума «Социальное здоровье России», 2016<br><br>4. Вдовина М.В. Межпоколенные конфликты в современной семье: Монография. - М.: Изд-во Моск. Гуманит. Ун-та, 2005. - 284 с.<br><br>5. Винтин И.А., Кузьменко Т.В. Роль социальных служб в планировании семьи. Аспект перинатальной психологии. - Саранск, 2007. -105 с.<br><br>6. Захаров А.И. Психологические особенности диагностики оптимизации взаимоотношений в конфликтной семье. // Вопросы психологии.: Спб. - Изд-во Речь, 2007. | 1.“Open Textbooks for Social Work Education” https://opensocialwork.org/textbooks/#family<br><br>2. “Social work today”. https://www.socialworktoday.com/children_family_index.shtml |

**“Ailə və sosial iş” fənninin tədrisində istifadə olunan mövzular üzrə tələbənin bilməli və bacarmalı olduqları səriştələr.**

## FƏNNİN MÜHAZİRƏ MƏTNLƏRİ

| Mövzunun adı | Bu mövzunun öyrənilməsi nəticəsində *tələbə bilməlidir* | Bu mövzunun öyrənilməsi nəticəsində<br>*tələbə bacarmalıdır* |
|---|---|---|
| **Mövzu 1. Ailə sosial işin obyekti kimi** | - Evlilik və ailə anlayışlarının mahiyyəti və fərqini;<br>- Ailənin sosial cəmiyyətdə rolunu;<br>- Hansı ailə bağlarının olduğunu;<br>- Ailənin nəyə əsaslandığını;<br>- Ailənin ən vacib funksiyalarını;<br>- Ailələrin tarixi tiplərini izah etməyi;<br>- Evlilik və ailə münasibətlərinin inkişaf mərhələlərini. | - Tərkibinə, nikah növünə və ailədə səlahiyyət bölgüsünə görə ailələri fərqləndirməyi. |
| **Mövzu 2. Ailə və sosial işin nəzəri əsasları** | - Müraciətci kimi ailəyə əsas yanaşmaları;<br>- Ailədəki dəyişikliklərin əsas səbəblərini;<br>- Sosial qarşıdurma nəzəriyyəsinin əsas xüsusiyyətlərini;<br>- V. Satirə görə ailə terapiyasının mahiyyətini;<br>- S. Minuxinin struktur ailə modelini xarakterizə etməyi;<br>- M. Bowen tərəfindən irəli sürülən sistemli terapiyanın mahiyyətini;<br>- S. Rhodes tərəfindən qruplaşdırılan ailənin inkişafı mərhələlərini;<br>- Maddə asılılığından əziyyət çəkən müraciətcilərə sosial dəstək göstərilməsi yollarını. | - Ailə üzvlərinə fərdi yanaşma təmin etməyi;<br>- Asılılıq yaradan dərmanları müəyyənləşdirməyi;<br>- Ailələri kiçik qruplar, sosial institut və şəxsiyyətlərarası münasibətlər şəbəkəsi kimi fərqləndirməyi. |

| | | |
|---|---|---|
| **Mövzu 3. Ailənin funksiyaları və vəzifələri** | - Ailənin növləri və funksiyaları üzrə təsnifatını;<br>- Ailənin tərbiyəvi funksiyasının mahiyyətini;<br>- Ailə tərbiyəsinin prinsiplərini;<br>- Ailənin tərbiyəvi funksiyasının birinci, ikinci və üçüncü tərəflərini;<br>- Çətin həyat şəraiti olan ailələrlə iş təcrübəsini;<br>- Disfunksional ailələrin əsas problemlərini. | - Ailəni funksiyalarına və tipologiyalarına görə fərqləndirməyi;<br>- Çətin həyat şəraitində olan ailələrə psixoloji yardım göstərməyi. |
| **Mövzu 4. Ailə sosial işi: ilkin qiymətləndirmə** | - Ailə ilə sosial işin əsas məqsədlərini;<br>- Şəxsin və ailənin sosial hüquq və mənafelərinin müdafiəsi məsələlərini;<br>- Ailə ilə sosial işin fəaliyyət prinsiplərini;<br>- Ailə ilə sosial işin təşkili və problemlərin həlli yollarını;<br>- Ailə ilə peşəkar sosial işin məqsədlərini;<br>- Ailə ilə düzgün ünsiyyəti qurma qaydalarını;<br>- Müraciətciyə qarşı humanizm, mərhəmət və tolerantlıq prinsiplərini. | - Müraciətci ilə qarşılıqlı ünsiyyətdə səbr və məsuliyyət nümayiş etdirməyi;<br>- Ailə problemlərinin səbəblərini müəyyənləşdirməyi;<br>- Ailələri cəmiyyətdəki mövcud resurslar və xidmətlərlə əlaqələndirməyi. |
| **Mövzu 5. Ailədaxili şiddət** | - Ailə münaqişəsinin mahiyyəti və xüsusiyyətlərini;<br>- Münaqişə vəziyyətində olan müxtəlif ailə tipləri haqqında;<br>- Ailə həyatının birinci, ikinci və üçüncü illərini xarakterizə edən təcrübələri;<br>- Emosional və şifahi zorakılıq haqqında; | - Ailə münaqişələrinin qarşısını almaq və böhran vəziyyətindən çıxış yolu tapmağı;<br>- Münaqişələri xüsusiyyətlərinə görə fərqləndirməyi. |

| | | |
|---|---|---|
| | - Ailələrdə münaqişələrin yaranmasına təsir edən ailə münasibətlərinin xarici amillərini;<br><br>- Ailə münaqişələrini əsas səbəblərini;<br><br>- Ailə münaqişələrinin əlamətlərə görə təsnifatını. | |
| **Mövzu 6. Ailənin həyat dövrü modeli** | - Ailə sistemi seçimlərini;<br><br>- Ailə qaydaları və ailə dəyişikliklərini;<br><br>- Ailə dəyərləri və ailə hekayələrinin mahiyyətini;<br><br>- Ailələri əhatə edən sosial xidmət proqramları;<br><br>- Carter və McGoldrickin ailənin həyat dövrü təsnifatını;<br><br>- Ailənin həyat boyu keçdiyi mərhələləri “ailənin həyat tsikli” kimi konseptual əsaslarını;<br><br>- Orta həyat dövründə olan ailələrin əsas xüsusiyyətlərini. | - Ailənin həyatının hər mərhələsində rolların və münasibətlərini dəyişməsini təhlil etməyi;<br><br>- Nigahın başlanğıcından həyat yoldaşının ölümünə qədər olan prosesin müxtəlif mərhələlərini təhlil etməyi. |
| **Mövzu 7. “Risk qrupu” ailələri və onların xüsusiyyətləri** | - Ailələrin ümumi xüsusiyyətlərini;<br><br>- Sağlam ailənin əlamətlərini;<br><br>- "Risk altında olan" ailələrin fərqli xüsusiyyətlərini;<br><br>- Tibbi, psixo-pedaqoji və sosial-hüquqi xarakterli kompleks fəaliyyət növlərini;<br><br>- “Risk qrupu” ailələrinə tibbi-sosial yardımın göstərilməsini;<br><br>- Ailələrdə valideyinlərin əsas funksiyalarını. | - “Risk qrupu” ailələrinə vaxtında psixoloji və terapevtik yardım göstərməyi;<br><br>- Ailələrdən olan müraciətcilərə birgə əməkdaşlıq təqdim etməyi. |

| | | |
|---|---|---|
| **Mövzu 8. Ailə məsləhəti və ailə terapiyası** | - Ailə məsləhətinin əsas məqsədlərini;<br>- Ailə məsləhətinin nəzəri əsaslarını;<br>- Ailə məsləhətinin mərhələlərini;<br>- K. Rogersə görə terapiyanın üç vacib prinsipini;<br>- Ailə münasibətləri və inkişaf məqsədləri üzrə məsləhətləri;<br>- Ailə məsləhətində Z.Freydin, K.Yunqun və A.Adlerin nəzəri əsasları;<br>- Məişət zorakılığı hallarında məsləhətləşmə təcrübəsini. | - Boşanma hallarında psixoloji yardım göstərməyi;<br>- Övladlığa uşaq götürməyə hazırlaşan valideynlərlə aktiv söhbət aparmağı. |
| **Mövzu 9. Ailədaxili sosial ünsiyyət** | - Münaqişə zamanı vasitəçilər haqqında məlumatları;<br>- Münaqişələrin təsviri xəritəsini;<br>- Münaqişənin həlli yolu kimi vasitəçiliyin funksiyalarını;<br>- Sosial mediasiyanın təşkilinin əsas mərhələlərini;<br>- Yardım göstərmək üçün sosial problemlərin həlli yollarını;<br>- Sosial vasitəçiliyin əsas prinsiplərini. | - Sosial vasitəçilik sxemini təhlil etməyi;<br>- Vasitəçilik fəaliyyətinin həyata keçirilməsi üçün alternativ variantları seçməyi;<br>- Ailə münaqişəsində sosial ünsiyyət prosesini dəyərləndirməyi. |
| **Mövzu 10. Ailələrlə sosial iş və ailə yoxsulluğu** | - Ailədəki rollar və məsuliyyətləri;<br>- Ailə ilə tanış olma və əlaqə qurma mərhələsini;<br>- Ailələrə sosial xidmət haqqında qanunları;<br>- Yoxsulluğun uşaqların sağlamlığına təsirini;<br>- Uşaq yoxsulluğu miqyası haqqında;<br>- Uşaqların qəddar zorakılıqdan hüquqi müdafiəsini; | - Uşaqların zorakılıqdan müdafiəsinin hüquqi əsaslarına dair əsas sənədləri təhlil etməyi;<br>- Sosial riskli ailələrdən olan uşaqlara yardım göstərməyi. |

| | | |
|---|---|---|
| | - İnsan hüquqlarının müdafiəsi üzrə beynəlxalq sənədləri;<br>- Yoxsulluğun mütləq və subyektiv mahiyyətini;<br>- Uşaq əməyini uşaq ölümü üçün risk faktoru kimi təsvir etməyi. | |
| **Mövzu 11. Xroniki xəstəliklərin və əlilliyin ailə həyatına təsiri** | - Xroniki xəstəliklər və onların xüsusiyyətləri haqqında;<br>- Əlillərin hüquqlarını;<br>- Əlilliyin formalarını;<br>- Əlillərin tibb müəssisələrinə çıxış imkanlarını;<br>- Əlillər üçün maneələr haqqında məlumat bazasını;<br>- Həyat keyfiyyətinin aşağı düşmə səbəblərini;<br>- Birləşmiş Millətlər Təşkilatının Əlillərin Hüquqları konvensiyasını;<br>- Birləşmiş Millətlər Təşkilatının Uşaq Hüquqları konvensiyası haqqında. | - Xroniki sindromlu xəstəlikləri digərlərindən fərqləndirməyi və onlara kömək etməyi;<br>- Əlillərə və fiziki qüsurlu insanlara psixoloji yardım göstərməyi. |
| **Mövzu 12. Ailəyə yönəlik sosial iş: müdaxilə və sonlandırma** | - Sosial işçinin ailə ilə işləməsi üçün effektiv tədbirləri;<br>- Təklif, inandırma, həvəsləndirmə və digər sosial iş üsullarını;<br>- Sosial himayənin mahiyyətini;<br>- Ailənin sosial himayədarlığının mərhələlərini;<br>- Çətin həyat vəziyyətində olan ailələrlə profilaktik iş aparmağı;<br>- V.Satirin yanaşmasının üç nəticəsini;<br>- S.Minux tərəfindən ailənin sistem nöqteyi-nəzərindən öyrənilməsini. | - Ailənin güclü tərəflərinini və resurslarını müəyyənləşdirməyi;<br>- Aztəminatlı uşaqlı ailələrə yardım sahəsində təcrübəni mənimsəməyi;<br>- Ailə ilə işləyərkən effektiv metod və üsulları tətbiq etməyi. |

| | | |
|---|---|---|
| **Mövzu 13. Ailədə uşaq baxımsızlığı və məişət zorakılığı** | - Zorakılıq anlayışının mahiyyəti və növlərini;<br><br>- Məişət zorakılığının nəzəri əsaslarını;<br><br>- Məişət zorakılığı halında müdaxilə etmək üçün sosial işçinin vəzifə və hüquqlarını;<br><br>- Ailədə uşaqların ehtiyaclarından sui-istifadənin mahiyyətini;<br><br>- Uşaqları qorumaq üçün ailələrlə sosial işin əsas prinsiplərini;<br><br>- Psixoloji və fiziki zorakılıq anlayışlarını;<br><br>- Yaşlı insanlara qarşı zorakılığın xüsusiyyətlərini;<br><br>- Ailədə uşaqların baxımsızlığı haqqında. | - Zorakılıq baş verən ailədə profilaktik iş aparmağı;<br><br>- Valideyn himayəsindən məhrum olmuş uşaqlara yardım göstərməyi;<br><br>- Qaçınılmaz təhlükə halında, uşağı zərərdən qorumaq üçün təcili müdaxilə tədbirləri həyata keçirilməyi. |
| **Mövzu 14. Ailə problemlərinə yanaşma** | - Problemli ailə qruplarının xüsusiyyətlərini;<br><br>- Böhran ailələri ilə sosial işin əsaslarını;<br><br>- Ailədə sosial risk faktorlarını;<br><br>- İnsanın normal həyatını pozan həyat şəraiti amillərini;<br><br>- Böhran vəziyyətində olan ailələrin ümumi əlamətlərini;<br><br>- Böhran vəziyyətində olan ailələrə yardım modellərini;<br><br>- Ailə üzvləri arasında münaqişələr və əlaqə problemləri vəziyyətinin dəyərləndirilməsini. | - Böhran ailələrini təsvir etməyi;<br><br>- Böhranda olan ailələrə dövlət yardımını qiymətləndirməyi;<br><br>- Travmatik və dəyişiklik böhranlarını nümunə üzərindən müqayisəli təhlil etməyi. |

| | | |
|---|---|---|
| **Mövzu 15. Azərbaycanda ailə siyasəti** | - Azərbaycan ailəsinin yaranma tarixini;<br><br>- Azərbaycan ailəsində və cəmiyyətində qadının rolu haqqında;<br><br>- Azərbaycanın ailə ilə bağlı dövlət siyasətinin əsas istiqamətlərini;<br><br>- Ailə problemlərində Azərbaycanın dövlət siyasətinin əsas prinsiplərini;<br><br>- Dövlətin sosial siyasətinin qanunvericilik bazası haqqında;<br><br>- Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin vəzifələri və hüquqlarını;<br><br>- Azərbaycanda ailənin cəmiyyətdəki rolu haqqında. | - Azərbaycanda dövlətin ailə siyasətini şərh etməyi;<br><br>- Dövlətin sosial strukturlarının əhalinin bütün kateqoriyalarına xidmət fəaliyyətini fərqləndirərək dəyərləndirməyi. |

## Fənnin tədrisində istifadə ediləcək interaktiv tədris metodları

| |
|---|
| ✓ mühazirələr, seminarlar, praktik məşğələlər; |
| ✓ təqdimatlar və müzakirələr, debatlar; viktorina, kahoot,Quizz |
| ✓ ekspert üsulları; video və audio mühazirələr; distant təhsil; |
| ✓ tədqiqat; layihələr, qrupların qiymətləndirilməsi; |
| ✓ problemli təlim texnologiyaları, simulyasiya modelləşdirmə; |
| ✓ kiçik qruplarda işləmək (komanda işi), işgüzar oyunlar, |
| ✓ xüsusi nümunələrin öyrənilməsi və təhlili (keys-study), |
| ✓ qrup işlərinin yazılması, test tapşırıqlarının yerinə yetirilməsi və s. |

## SEMİNAR-MƏŞĞƏLƏLƏR: HAZIRLIQ VƏ QİYMƏTLƏNDİRMƏ

Seminar-məşğələ dərslərində tələbə öz fikirlərini məntiqi ardıcıllıqla ifadə və izah etməyi, habelə arqumentlərlə əsaslandırmağı bacarmalıdır. Buna nail olmaq üçün tələbə:

1) Seminar məşğələsinin hər bir mövzusu üzrə müzakirəyə çıxarılan suallarla diqqətlə tanış olmalı;

2) Müvafiq mühazirə materiallarını diqqətlə öyrənməli;

3) Mövzu üzrə tövsiyə edilən ədəbiyyatı oxumalı və öyrənməli;

4) Seminar məşğələsində müzakirəyə çıxarılan hər bir sual üzrə qısa çıxıs hazırlamalı;

5) Mövzu üzrə verilən praktik tapşırıqlar və məsələləri yerinə yetirməklə praktik bacarıqlara yiyələnməlidir.

## DƏRSƏ DAVAMİYYƏT

Təhsilalanlara 75%-lik davamiyyət limiti tətbiq edilir. Davamiyyət limiti üzrə yuvarlaqlaşdırma (7,5 q/b - 8 q/b) tətbiq edilmir. Fənn üzrə bu həddi aşanlar həmin fənn üzrə aralıq qiymətləndirməyə (sessiya imtahanına) buraxılmır. Davamiyyət limitini aşmayan əyani təhsilalanlar üçün həmin fənn üzrə davamiyyətə görə bal verilmir.

## FƏNN ÜZRƏ QİYMƏTLƏNDİRMƏ *(Əyani təhsilalma forması üzrə)*

UNEC-də bakalavriat səviyyəsində təhsilin bütün illəri üzrə fənlərin attestasiyası hər biri 50 bal formalaşdıran cari və aralıq qiymətləndirmə (toplam 100 bal) əsasında həyata keçirilir. Cari qiymətləndirmə bakalavrların bilik və bacarıqlarının semestr ərzində qiymətləndirilməsi, aralıq qiymətləndirmə isə imtahan sessiyası zamanı həyata keçirilən qiymətləndirmədir.

Cari qiymətləndirmə üzrə 50 bal bakalavrların semestr ərzində topladıqları ***aktivlik və ara qiymətləndirmə*** ballarının cəmlənməsi ilə formalaşır. Aktivlik balı hər bir fənn üzrə semestr ərzində maksimal 20 bal ola bilər və bu bal tədrisi mühazirə və seminar dərsləri ilə həyata keçirilən fənlərdə seminar dərslərində alınan ballar əsasında fənlərin tədris növünə uyğun olaraq formalaşır.

Seminar dərslərində və praktik məşğələlərdə qiymətləndirmə 10 ballıq şkala əsasında həyata keçirilir və həmin ballar EDUMAN sistemində aşağıdakı nisbətlərdə hesaba alınır:

- 10 bal = 5 bal
- 9 bal = 4,5 bal
- 8 bal = 4 bal
- 7 bal = 3, 5 bal
- 6 bal = 3 bal
- 5 bal = 2,5 bal

- 4 bal = 2 bal
- 3 bal = 1,5 bal
- 2 bal = 1 bal
- 1 bal = 0,5 bal

**Qeyd:** fənnin tədris növü mühazirə, seminar və labaratoriya olduğu zaman seminar dərsi üzrə bal nisbəti EDUMAN sistemində 10 bal = 2,5 bal nisbətinə uyğun hesaba alınır:

Seminar dərslərində (qabiliyyət tələb edən fənlər istisna olmaqla) alınan ballar əsasında formalaşan yekun aktivlik balı aşağıdakı düsturla müəyyən edilir:

$$B = (((b1+b2+b3+...+bn)/s)*m)/10$$

Burada,

B - yekun aktivlik balı;
b - seminar dərslərində alınan müxtəlif ballar;
s - semestr ərzində verilən cavabların sayı;
m - aktivlik balına ayrılan maksimal bal;
10 - bir seminar dərsində toplanan maksimal baldır.

Bakalavrlar semestr ərzində cəmi 4 dəfə, hər dəfə isə 10 bal aldığı halda maksimal aktivlik balını - 20 balı toplamış olur. Bu halda nəticə sistemdə (((10+10+10+10)/4)*20)/10 = 20 olaraq hesaba alınır.

Maksimal bal toplaya bilməyənlər isə istədiyi halda 5-ci, 6-cı, 7-ci və s. dəfə cavab verməklə aktivlik balı toplaya bilərlər. Bu zaman müəllim ilkin olaraq həmin qrupda ümumilikdə 4 dəfə cavab verməyənlərdən başlamaqla növbəlilik prinsipi əsasında bakalavrların cavab verməsi üçün imkan yaradır.

Bakalavrlar semestr ərzində seminar dərsində 4 dəfədən az cavab verdiyi halda çatışmayan cavab sayı sistem tərəfindən “0” bal olmaqla nəzərə alınır. Məsələn, əgər hər hansı təhsilalan bir fənn üzrə semestr ərzində cəmi 2 dəfə seminar dərsində cavab verib və hər dəfə 10 bal aldığı halda onun yekun aktivlik balı hesablanan zaman həmin təhsilalanın nəticəsi (((10+10+0+0)/4)*20)/10 kimi hesablanır. Seminar dərsində ümümiyyətlə balı olmayan tələbənin aktivlik balı isə “0” bal hesab edilir.

Semestr ərzində təhsilalanların hər bir fənn üzrə topladığı nəticə tam olmadığı halda semestrin sonunda sistem tərəfindən adi riyazi qaydada həmin nəticələr yuvarlaqlaşdırılır (məs. 6,5 bal – 7 bal kimi nəzərə alınır).

***Ara qiymətləndirmə.*** Hər bir fənn üzrə semestr ərzində maksimal 30 bal formalaşdıran və ilk 7 tədris həftəsi ərzində keçilmiş mövzular üzrə (7-ci həftə də daxil olmaqla) aparılan qiymətləndirmədir. Ara qiymətləndirmə mərkəzləşdirilmiş qaydada test və ya yazılı üsulda 8-ci və 9-cu tədris həftələri ərzində keçirilir və təhsilalanlara həmin dövrə qədər mühazirəsi tamamlanmayan mövzu üzrə test və ya yazılı cavablandırılan sual təqdim edilmir. Fənlər üzrə (alt qrup fənləri də daxil

olmaqla) ara qiymətləndirmə tədris prosesi dayandırılmadan bakalavriat səviyyəsində əks dərs növbələrində, magistratura səviyyəsində isə cədvəl üzrə dərs olmayan günlərdə, zərurət yarandığı halda isə şənbə günlərində keçirilir. Şənbə günləri ara qiymətləndirmə ilə əlaqədar əmək fəaliyyəti göstərən əməkdaşlara onların istəklərinə uyğun olaraq ara qiymətləndirmənin keçirildiyi təqvim ayı ərzində əlavə istirahət günü - "əvəzgün" verilir.

Ara qiymətləndirmənin cədvəli bir fənn - bir gün prinsipinə əsaslanmaqla ardıcıl günlər üzrə tərtib olunur və 6-cı tədris həftəsinin sonuna qədər UNEC-in saytında elan edilir.

Test üsulunda keçirilən ara qiymətləndirmə zamanı hər bir fənn üzrə təhsilalanlara 30 test təqdim olunur. Testlərin hər biri 1 balla qiymətləndirilir və səhv cavablandırılmış testlər düz cavablara təsir etmir. Yazılı üsulunda keçirilən ara qiymətləndirmə zamanı isə hər bir fənn üzrə təhsilalanlara 3 sual təqdim olunur. Bu qiymətləndirmə zamanı hər bir təhsilalana fənlərin xüsusiyyəti nəzərə alınmaqla müxtəlif vaxt müddətləri verilir. Bu vaxt müddətləri UNEC Elmi Şurasının qərarı ilə müəyyən edilir.

Ara qiymətləndirmə üzrə üzrlü imtahanları (habelə olduğu halda texniki problem yaranmış imtahanlar) 11-ci tədris həftəsi ərzində eyni qaydada ardıcıl günlərdə keçirilir.

Qabiliyyət tələb edən fənlər üzrə ara qiymətləndirmə semestr ərzində yerinə yetirilən və hər biri 5 bal üzərindən qiymətləndirilən 6 fərdi işin (hər ay ərzində 2 iş olmaqla) qiymətləndirilməsi əsasında təmin olunur.

Fənlər üzrə ara qiymətləndirmə onların tədrisi formasından (əyani, hibrid və ya online) asılı olmayaraq universitetin imtahan zallarında və ya bu məqsədlə müəyyən edilən auditoriyalarda test, qarışıq və ya yazılı üsullardan birinin istifadə edilməsi ilə keçirilir. Bu qiymətləndirmə üzrə nəticələr kağız formasında arxivləşdirilmir.

Bakalavriat və magistratura səviyyələri üzrə təhsilalanlara 75%-lik davamiyyət limiti tətbiq edilir. Fənn üzrə bu həddi aşanlar həmin fənn üzrə aralıq qiymətləndirməyə (sessiya imtahanına) buraxılmır. Davamiyyət limitini aşmayan əyani təhsilalanlar üçün həmin fənn üzrə davamiyyətə görə bal verilmir. Qiyabi təhsilalma forması üzrə isə davamiyyət səviyyəsindən asılı olaraq maksimum 10 bal verilir.

***Aralıq qiymətləndirmə.*** Test, yazılı, qarışıq, şifahi və ya qabiliyyət imtahanı üsullarından biri ilə hər semestrin sonunda keçirilən sessiya imtahanıdır. Bu imtahanlarda təhsilalanların qiymətləndirilməsi 50 bal üzərindən hər bir imtahan üsulu üzrə müəyyən edilən qaydada həyata keçirilir.

Aralıq qiymətləndirmə semestr ərzində keçilmiş bütün mövzular üzrə tərtib edilən testlər, yazılı və ya şifahi imtahan sualları (qabiliyyət tələb edən fənlər istisna olmaqla) əsasında həyata keçirilir. Bu qiymətləndirmənin cədvəli imtahanlar arasında

minimum 2 gün fasilə verilməklə tərtib olunur. İmtahan cədvəli 13-cü tədris həftəsində UNEC-in saytında elan edilir.

Test üsulunda keçirilən aralıq qiymətləndirmə zamanı hər bir fənn üzrə təhsilalanlara 50 test təqdim olunur. Testlərin hər biri 1 balla qiymətləndirilir və səhv cavablandırılmış testlər düz cavablara təsir etmir. Yazılı üsulunda (qabiliyyət tələb edən fənlər istisna olmaqla) keçirilən aralıq qiymətləndirmə zamanı isə hər bir fənn üzrə təhsilalanlara 5 sual təqdim olunur. Bu qiymətləndirmə zamanı hər bir təhsilalana fənlərin xüsusiyyəti nəzərə alınmaqla müxtəlif vaxt müddətləri verilir. Bu vaxt müddətləri UNEC Elmi Şurasının qərarı ilə müəyyən edilir.

Aralıq qiymətləndirmə üzrə üzrlü imtahanları (texniki problem yaranmış imtahanlar da daxil olmaqla) sessiya bitdikdən sonra eyni qaydada ardıcıl günlər ərzində keçirilir.

Fənlərin tədrisi formasından (əyani, hibrid və ya online) asılı olmayaraq bütün imtahanlar universitetin imtahan zallarında və ya bu məqsədlə müəyyən edilən auditoriyalarda test, qarışıq, yazılı, şifahi və ya qabiliyyət imtahanı üsullarından birinin istifadə edilməsi ilə keçirilir. Bu qiymətləndirmə üzrə nəticələr kağız formasında arxivləşdirilir.

***Cari və aralıq qiymətləndirmə.*** Tədrisi mühazirə və seminar dərslərindən ibarət olmaqla həyata keçirilən fənlərdə cari qiymətləndirmə üzrə 50 balın 20 balı aktivlik balı hesabına (10 bal = 5 bal nisbətində seminar dərsində toplanan bal), 30 balı isə ara qiymətləndirmə əsasında təmin edilir. Aralıq qiymətləndirmə üzrə 50 bal - test və ya yazılı üsulda keçirilən sessiya imtahanı əsasında formalaşır.

## İMTAHAN VƏ İMTAHANA QƏDƏR TOPLANAN BALLAR ƏSASINDA SEMESTR NƏTİCƏSİNƏ GÖRƏ QİYMƏTLƏNDİRMƏ

| 91-100 bal | əla | A |
|---|---|---|
| 81-90 bal | çox yaxşı | B |
| 71-80 bal | yaxşı | C |
| 61-70 bal | kafi | D |
| 51-60 bal | qənaətbəxş | E |
| 51 baldan aşağı | qeyri-kafi | F |

*QEYD:* İmtahanda minimum 17 bal toplanmasa, imtahana qədər yığılan ballar toplanmayacaq.

## TƏCRÜBƏ

Bu fənn üzrə istehsalat təsrübəsi yalnız ixtisas qrupları üzrə nəzərdə tutulub.

**TƏRTİB ETDİ:**  **B/müəl. i.f.d Səfərova Fidan Məhiş qızı.**